# ƏDLİYYƏ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 06 (267) iyun 2026


## Ədliyyə naziri Zəngilan rayonunda vətəndaşları qəbul edib

**Ədliyyə naziri Fərid Əhmədov 5 iyun tarixində Zəngilan rayonunun Ağalı kəndində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarından olan vətəndaşların ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.







## Bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilib







**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**

İyunun 9-da Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov tərəfindən Şəmkir, Şəki, Bərdə, Sumqayıt, Gəncə, Xaçmaz, Şirvan və Lənkəran regional ədliyyə idarələri ilə birlikdə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün, iyunun 25-də isə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən İmişli, Bərdə, Lənkəran, Şəmkir və Gəncə regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.



Videoqəbullarda penitensiar sahə ilə bağlı qəbulda iştirak etmək üçün müraciət edən 13 vətəndaşın, Notariat, qeydiyyat və reyestr baş idarəsi, Tibb baş idarəsi və İnsan resursları idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı 8 vətəndaşın müraciətləri dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

# Ədliyyə Nazirliyinin ”881” Çağrı Mərkəzində iyun ayında xidmət səviyyəsi 91 faizi keçib

**Ədliyyə Nazirliyinin ”881” Çağrı Mərkəzi müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.**

Çağrı Mərkəzi iş vaxtı ərzində fasiləsiz olaraq Nazirliyin bütün fəaliyyət sahələri üzrə vətəndaşların müraciətlərinin cavablandırılmasını və yönləndirilməsini həyata keçirir.

İyun ayı ərzində ”881” Çağrı Mərkəzinə məhkəmə qərarlarının icrası, notariat, qeydiyyat, penitensiar sahə, bələdiyyələrin fəaliyyəti, məhkəmə ekspertizası, probasiya və digər aidiyyəti sahələr üzrə daxil olan 18.975 müraciətdən 18.656-sı cavablandırılıb. Vətəndaşlara göstərilən xidmət səviyyəsi (daxil olan zənglərin 30 saniyə ərzində cavablandırmaya qəbul faizi) 91.31 faiz olub, habelə vətəndaş müraciətləri ilə bağlı orta xidmət müddəti 1 dəqiqə 52 saniyə təşkil edib.

Bundan başqa, Çağrı Mərkəzində müraciətlərin birbaşa cavablandırılması ilə yanaşı ən son innovativ həlləri əks etdirən proqram təminatı vasitəsilə interaktiv səsli menyu, ”geriyə zəng” və ”zəng sifarişi” xidmətləri ilə ay ərzində 319 itirilmiş zənglə əks əlaqə yaradılıb və qeyri-iş günlərində müraciət edən




496 vətəndaşın suallarının cavablandırılması təmin edilib.

Qeyd edək ki, xidmət keyfiyyətinin dəyərləndirilməsi məqsədilə zəng bitdikdən sonra Çağrı Mərkəzi tərəfindən vətəndaşlara SMS göndərilir. Vətəndaşlar həmin SMS-dəki linkə daxil olub qısa sualları cavablandıraraq və əlavə şərh yazaraq göstərilən xidməti qiymətləndirə bilərlər.

Ədliyyə Nazirliyi Çağrı Mərkəzinin inkişaf etdirilməsi, qanunvericiliyin tələblərinə və müasir standartlara uyğun təşkili, vətəndaş məmnunluğunun, operativliyin və göstərilən xidmətin keyfiyyətinin artırılması üçün davamlı olaraq tədbirlər həyata keçirir.

# Xüsusi icra məmuru fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərlə test imtahanı keçirilib

**İyunun 12-də Xüsusi İcra Məmurlarının Müsabiqə Komissiyası Dövlət İmtahan Mərkəzi ilə birlikdə xüsusi icra məmuru fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərlə test imtahanı keçirib.**





İmtahanda namizədlərə xüsusi icra məmurunun fəaliyyətində tətbiq olunan qanunvericiliyə dair 60 sual, məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini, dünyagörüşünü və ünsiyyət bacarıqlarını müəyyən edən 40 sual olmaqla, ümumilikdə 100 sual təqdim edilib. Qanunvericilik üzrə hər sual 1 balla, digər suallar üzrə hər biri 0.5 balla qiymətləndirilib, keçid balı isə 55 olub.

İmtahanda 94 namizəd iştirak edib. Namizədlər test imtahanını yekunlaşdırdıqda topladıqları bal barədə məlumatla tanış olmaq imkanına malik oldular.

Müsabiqənin test imtahanı mərhələsindən müvəffəqiyyətlə keçən, habelə həmin imtahandan azad olunmuş və müsahibədə iştirak etmək istəyən şəxslər ”Xüsusi icra məmuru vəzifəsi üçün müsabiqənin elan edilməsi, müraciətlərin qəbulu və onlara baxılma qaydası”nın 2.3-cü bəndində nəzərdə tutulmuş sənədləri 15 iş günü ərzində, saat 9:00-dan 18:00-dək Xüsusi İcra Məmurlarının Müsabiqə Komissiyasına (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər.

Təqdim etdiyi sənədlərə görə ”Xüsusi icra məmurları haqqında” Qanunla müəyyən edilmiş tələblərə cavab verən namizədlər müsabiqənin ikinci mərhələsinə - müsahibəyə buraxılacaqlar.

İmtahan nəticələri ilə bağlı Apellyasiya Komissiyası 16 - 18 iyun tarixlərində saat 14:00-dan 17:00-dək Dövlət İmtahan Mərkəzinin əsas inzibati binasında fəaliyyət göstərəcək (Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299).

# Notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamə alacaq namizədlər müəyyənləşib

**Ədliyyə Nazirliyinin İxtisas Komissiyası bildirir ki, notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamə almaq istəyən hüquqşünaslar arasında keçirilmiş müsabiqənin test imtahanı və fərdi müsahibə mərhələlərini uğurla keçən namizədlər üçün Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında təşkil olunmuş icbari təlimlər yekunlaşıb.**

Aşağıdakı namizədlər icbari təlimin yekunları üzrə aparılmış qiymətləndirmədən uğur qazanıblar:

Soyadı, adı, atasının adı
1. Abdullayeva Sevinc Vəli qızı
2. Ağayeva Nərmin Malik qızı
3. Babayeva Nərgiz Çingiz qızı
4. Bayramov Fərid Abdulkərim oğlu
5. Cəfərli Emil Şamil oğlu
6. Əlizadə Nuridə Elton qızı
7. Əzimov Rauf Nəriman oğlu
8. Xalıqzadə Rauf Güləli oğlu
9. Xıdırlı-Quliyeva Günel Arif qızı
10. İsrafilli Ruslan Firdovsi oğlu
11. Qocayev Qoca Akif oğlu
12. Şərifov Sərdar Əliş oğlu
13. Məmmədova Günel Kəmaləddin qızı
14. Mirzəyeva Şəlalə Namiq qızı

İcbari təlimin yekunları üzrə qiymətləndirmədə uğur qazanmış namizədlərə notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamə veriləcək.

Əlavə məlumatları Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsindən (Bakı şəhəri, Azadlıq prospekti 72), habelə (012) 510-10-01 (daxili nömrə: 10270 və ya 10252) nömrəli telefon vasitəsilə almaq mümkündür.

# Ədliyyə Nazirliyi tərəfindən hakimlərin hazırlığının artırılması məqsədilə təlimlər keçirilib

**Ədliyyə Nazirliyinin təşkilatçılığı, Məhkəmə-Hüquq Şurası və Ali Məhkəmənin birgə dəstəyi ilə 18-22 may tarixlərində Lənkəranda hakimlər üçün inzibati hüquq və proses üzrə təlimlər təşkil olunub.**




Təlimlər Almaniyanın Berlin şəhərinin inzibati məhkəməsinin hakimi Jorg Pudelka tərəfindən keçirilib.

Hakimlərin təlimçi kimi inkişaf etdirilməsi və sonradan həmin hakimlər vasitəsilə digər hakimlərin və hakimliyə namizədlərin bilik və bacarıqlarının artırılması məqsədilə təşkil edilən təlimlərdə müxtəlif instansiyalar üzrə hakimlər iştirak ediblər.

Ölkəmizdə hakim korpusunun komplektləşdirilməsi, məhkəmə hakimiyyətinin peşəkar hakimlərlə təmin edilməsi və bu çərçivədə hakimlərin hazırlığının təkmilləşdirilməsi məqsədilə ilk dəfə hakim təyin olunmuş şəxslərin təlimi və hakimlərin davamlı tədrisi Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

## Ədliyyə Nazirliyində Qars Vəkillər Kollegiyasının nümayəndə heyəti ilə görüş keçirilib



**İyunun 5-də Ədliyyə Nazirliyində Türkiyə Respublikasının Qars Vəkillər Kollegiyasının nümayəndə heyəti ilə görüş keçirilib.**

Görüşdə Qars Vəkillər Kollegiyasının sədri Necat Yağcı, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru Rövşən İsmayılov, eləcə də hər iki tərəfin digər nümayəndələri iştirak ediblər.

Qonaqları salamlayan Rövşən İsmayılov Azərbaycan və Türkiyə arasında mövcud olan strateji tərəfdaşlıq, dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hüquq və ədliyyə sahəsində uğurla inkişaf etdiyini vurğulayıb. O, iki ölkənin ədliyyə qurumları və təhsil müəssisələri arasında səmərəli əməkdaşlıq əlaqələrinin əhəmiyyətini qeyd edib, həmçinin vəkillərin tədrisi ilə bağlı peşə hazırlığı və ixtisasartırma prosesində Ədliyyə Akademiyasının fəaliyyəti barədə məlumat verib.

Necat Yağcı göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, Qars Vəkillər Kollegiyasının fəaliyyəti barədə ətraflı məlumat təqdim edib.

Görüş qarşılıqlı müzakirələrlə davam edib.

## Ədliyyə Nazirliyinin nümayəndə heyəti Pakistanda beynəlxalq təlim proqramında iştirak edib

**Ədliyyə Nazirliyinin nümayəndə heyəti Pakistan İslam Respublikasının İslamabad şəhərində təşkil olunmuş "Advanced Treaty Practice: From Signature to Domestic Law" ("Müqavilə təcrübəsinin təkmilləşdirilməsi: imzalanmadan milli qanunvericiliyə qədər") adlı beynəlxalq təlim proqramında iştirak edib. Təlimdə Nazirliyin Beynəlxalq əməkdaşlıq baş idarəsi, Qanunvericilik baş idarəsi, Penitensiar xidməti, Məhkəmə Ekspertizası Mərkəzi və İnsan resursları idarəsindən ümumilikdə 10 əməkdaş təmsil olunub.**



Təlimdə Azərbaycanla yanaşı, Çin, Banqladeş, Pakistan və Türkiyədən olan nümayəndələr iştirak ediblər.

Tədbir Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında imzalanmış Əməkdaşlıq Proqramı çərçivəsində təşkil olunub. Proqramın həyata keçirilməsi ilə bağlı razılıq ədliyyə naziri Fərid Əhmədovun 14-15 may tarixlərində Pakistana səfəri çərçivəsində əldə edilib. Təşəbbüs iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsinə xidmət etməklə yanaşı, çoxtərəfli peşəkar əməkdaşlıq platformasının formalaşmasına da mühüm töhfə verib.

Dörd gün davam edən təlim proqramı çərçivəsində Pakistanın ekspert və mütəxəssisləri tərəfindən beynəlxalq müqavilələrin hazırlanması və bağlanılması prosedurları, müqavilə danışıqlarının aparılması, sənədlərin tərtibi, onlara dəyişikliklərin edilməsi, ləğvi, icrası, monitorinqi və milli qanunvericiliyə implementasiyası mövzularında mühazirələr, praktiki məşğələlər və simulyasiya sessiyaları keçirilib.

Səfər çərçivəsində nümayəndə heyəti Pakistan İslam Respublikasının Ali Məhkəməsini və Parlamentini ziyarət edib, həmin qurumların rəhbər şəxsləri ilə görüşlər keçirib.

Təlim proqramının bağlanış mərasimi Pakistan İslam Respublikasının Xarici İşlər Nazirliyində baş tutub. Mərasimdə Pakistanın Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Dar, hüquq və ədliyyə naziri Azam Nazir Tarar, həmçinin iştirakçı dövlətlərin diplomatik nümayəndəliklərinin və hüquq ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir zamanı iştirakçılara sertifikatlar təqdim olunub.

## Beynəlxalq axtarışda olan şəxslər Azərbaycana ekstradisiya ediliblər

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin aidiyyəti qurumları ilə beynəlxalq axtarışa verilmiş, cinayət törədilməsində ittiham olunan şəxslərin tutularaq ölkəmizə gətirilməsi ilə bağlı səmərəli əməkdaşlıq tədbirləri davam etdirilir.**

İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilən və yeri Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) müəyyən edilən bir şəxsin iyunun 4-də, digər şəxsin yeri isə Almaniyada müəyyən edilərək iyunun 18-də Nazirlik tərəfindən Azərbaycana ekstradisiyası həyata keçirilib.

Belə ki, 2022-ci ildən etibarən bir qrup vətəndaşı əlillik təqaüdünün təyin etdirilməsi və ya işə düzəltmək adı ilə aldadaraq, vətəndaşların etibarından sui-istifadə etməklə, qeyd olunan məqsədlə onlardan pul vəsaiti almaqla zərərçəkmiş şəxslərə külli miqdarda maddi ziyan vurmaqda (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.1 və 178.2.4-cü maddələri) ittiham edilmiş Azərbaycan Respublikasının vətəndaşı Babayev Polad Murad oğlunun yeri BƏƏ-də müəyyən olunub və o, həbs edilib.

90-cı illərin əvvəlində tamah niyyəti ilə maddi sərvət əldə etmək məqsədilə digər şəxslərlə cinayət əlaqəsinə girib zorakılıqla bağlı olan basqınla müşayiət olunan quldurluq hərəkətləri edərək, zərərçəkmiş Qurbanəli Mustafayevin sağlamlığına ağır zərər vurmaqla onu qəsdən öldürməkdə (Azərbaycan Respublikasının qüvvədə olmuş Cinayət Məcəlləsinin 94-cü maddəsinin 2-ci bəndi və 145-ci maddəsinin 2-ci hissəsinin 1,2,3,6,8-ci bəndləri) ittiham edilmiş və 33 il beynəlxalq axtarışda olan Gürcüstan vətəndaşı Şamilov Elşən Həsən oğlunun yeri isə Almaniyada müəyyən olunub və o, həbs edilib.

Beynəlxalq prosedurlara uyğun tələb olunan sənədlərin təqdimatından, habelə aparılan danışıqlardan sonra həmin şəxslərin Azərbaycana ekstradisiyası ilə bağlı razılıq əldə olunub. Bu, dövlətimizin beynəlxalq nüfuzunu və BƏƏ-nin və Almaniyanın ölkəmiz üçün etibarlı tərəfdaş olduqlarını bir daha təsdiqləyir.

Babayev Polad Murad oğlu və Şamilov Elşən Həsən oğlu Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq baş idarəsinin və Nazirliyin Penitensiar xidmətinin məsul əməkdaşları tərəfindən BƏƏ-nin Dubay şəhərindən və Almaniyanın Frankfurt şəhərindən ölkəmizə gətirilib və məhkəmənin həbs qərarına əsasən müvafiq istintaq təcridxanasına yerləşdiriliblər.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər davam etdirilir.

## Probasiya sahəsində beynəlxalq seminar keçirilib

**9-10 iyun tarixlərində Bakıda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti Niderland Probasiya xidməti (Reclassering Nederland) ilə birgə beynəlxalq seminar təşkil edib.**



"Azərbaycanda probasiya xidmətinin inkişafına dəstək" layihəsi çərçivəsində keçirilən ikigünlük seminar probasiya sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinə və tətbiqinin genişləndirilməsinə həsr edilib. Seminarda ədliyyə, prokurorluq, polis və digər dövlət orqanlarının əməkdaşları, probasiya könüllüləri və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri də daxil olmaqla 80-dən artıq iştirakçı təmsil olunub.

Tədbirin açılış mərasimində Niderland Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Marian de Yonq və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru Rövşən İsmayılov çıxış edərək əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. Çıxışlarda probasiya institutunun inkişafının cinayət ədliyyəsinin humanistləşdirilməsi, alternativ cəzaların tətbiqi, məhkumların sosial adaptasiyası və reabilitasiyası baxımından mühüm rolu qeyd olunub.

Seminar çərçivəsində Niderland Probasiya xidmətinin Beynəlxalq idarəsinin rəhbəri Yoxum Vildeman, həmin idarənin beynəlxalq təlimçisi Mixiel van Herpen, Hertoqenboş Apellyasiya Məhkəməsinin baş hakimi Niko Tuijn, eləcə də Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəisi Vüqar Ağayev təqdimatla çıxış ediblər.

Niderland nümayəndə heyəti tərəfindən ölkələrinin 200 illik tarixə malik probasiya sisteminin fəaliyyəti, probasiyanın beynəlxalq praktikadakı rolu barədə ətraflı məlumat verilib.

Tədbirdə Azərbaycan probasiya xidmətinin strateji inkişaf istiqamətləri, son illərdə həyata keçirilən institusional islahatlar, probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyası və reabilitasiyası sahəsində görülmüş işlər, habelə gələcək fəaliyyət prioritetləri iştirakçıların diqqətinə çatdırılıb. Seminar interaktiv müzakirələr şəraitində davam edib, iştirakçıların sualları cavablandırılıb və qarşılıqlı təcrübə mübadiləsi aparılıb.

Səfər çərçivəsində Niderland nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Ali Məhkəməsində, Baş Prokurorluqda və Ədliyyə Nazirliyinin Probasiya xidmətində bir sıra görüşlər keçirilib. Görüşlər zamanı probasiya sahəsində mövcud təcrübə, qanunvericilik və institusional inkişaf istiqamətləri üzrə fikir mübadiləsi aparılıb, gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

# Məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə Texniki Komitə yaradılıb




**"Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"da məhkəmə ekspertizası fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə standartlaşdırma, akkreditasiya və uyğunluğun qiymətləndirilməsi mexanizmlərinin tətbiqi prioritet istiqamətlərdən biri kimi qəbul edilib.**

Ölkəmizdə məhkəmə ekspertizası sahəsində milli standartlaşdırma sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılması və bu istiqamətdə institusional mexanizmlərin təkmilləşdirilməsi məqsədilə adıçəkilən Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası davam etdirilir.

Konsepsiyada məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə texniki komitələrin yaradılması ilə bağlı müəyyən edilmiş tapşırığa uyğun olaraq Azərbaycan Standartlaşdırma İnstitutunun 2026-cı il 26 may tarixli qərarı ilə "Məhkəmə ekspertizaları" standartlaşdırma üzrə Texniki Komitəsi (AZSTAND/TK 57) təsis edilib.

Yeni yaradılan Texniki Komitənin əsas fəaliyyət istiqamətlərinə məhkəmə ekspertizası sahəsində tətbiq olunan ISO və digər beynəlxalq standartların sistemli təhlili, dövlət standartların layihələrinin hazırlanması və peşəkar müzakirəsinin təşkili, onların aidiyyəti qurumlarla razılaşdırılması, qəbul edilmiş standartların dövlət reyestrinə və fonduna daxil edilməsi, habelə tətbiqini təmin edən metodiki sənədlərin işlənib hazırlanması daxildir.

Texniki Komitənin fəaliyyəti məhkəmə ekspertizası sahəsində beynəlxalq standartların tətbiqinin genişləndirilməsinə, ekspertiza fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə və bu sahədə qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqinə töhfə verəcək.

# "Məhkəmə ekspertizaları" standartlaşdırma üzrə Texniki Komitənin ilk iclası keçirilib

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"da nəzərdə tutulmuş tapşırıqların icrası məqsədilə yaradılmış "Məhkəmə ekspertizaları" standartlaşdırma üzrə Texniki Komitənin ("AZSTAND/TK 57") ilk iclası keçirilib.**



İclasda Texniki Komitənin 2026-cı il üzrə fəaliyyət planı müzakirə olunaraq qarşıda duran vəzifələr müəyyənləşdirilib. Komitənin fəaliyyət planına uyğun olaraq cari ildə məhkəmə ekspertizaları standartının terminologiyası, tədqiqat obyektlərinin götürülməsi, qeydiyyatı, daşınması və saxlanması qaydaları, soyuq silah və məhkəmə botanik ekspertizalarının terminləri və anlayışlarına dair ümumilikdə dörd standartın işlənib hazırlanması nəzərdə tutulur.

Həmçinin Komitənin fəaliyyətində səmərəliliyin təmin edilməsi üçün ekspert ixtisaslarına uyğun alt qrupların yaradılması məqsədəuyğun hesab edilib.

Məhkəmə ekspertizası idarələrinin, elm və təhsil müəssisələrinin, istehsalçı müəssisələrin, standartlaşdırma üzrə texniki ekspertlərin təmsil olunduğu Texniki Komitə maraqlı tərəflərin iştirakını təmin etməklə bu sahədə dövlət standartlarının hazırlanması fəaliyyətlərini əlaqələndirəcək və hazırlanmış layihələri təsdiqlənməsi üçün milli standartlaşdırma qurumuna təqdim edəcək.

# Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə ali təhsil müəssisələri arasında Əməkdaşlıq memorandumları imzalanıb







**Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin müasir çağırışlara uyğun inkişaf etdirilməsi, yüksəkixtisaslı ekspert kadrların hazırlanması və elmlə praktikanın vəhdətinin gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Bakı Dövlət Universiteti arasında Əməkdaşlıq memorandumları imzalanıb.**

Azərbaycan Texniki Universiteti və Bakı Dövlət Universiteti ilə imzalanmış memorandumlar əsasən qurumlar məhkəmə ekspertizası sahəsində insan resurslarının hazırlanması, tələbələrin praktiki bilik və bacarıqlarının artırılması, elmi-tədqiqat fəaliyyətinin təşviqi, innovativ texnologiyaların ekspertiza proseslərinə inteqrasiyası və birgə elmi nəşrlərin hazırlanması istiqamətlərində əməkdaşlıq edəcəklər.

Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə isə yüksəkixtisaslı kadrların hazırlanması və onların məhkəmə ekspertizası fəaliyyətinə cəlb edilməsi, müvafiq sahələr üzrə təhsil proqramlarına məhkəmə ekspertizasına dair seçmə fənlərin daxil edilməsi, məhkəmə ekspertlərinin nəzəri və praktiki hazırlığının beynəlxalq standartlara uyğun təşkili, habelə onların bilik və bacarıqlarının davamlı təkmilləşdirilməsi istiqamətində əməkdaşlıq ediləcəkdir.

Əməkdaşlıq çərçivəsində Azərbaycan Texniki Universitetinin informasiya texnologiyaları, telekommunikasiya, maşınqayırma, metallurgiya, nəqliyyat, logistika və energetika ixtisasları üzrə təhsil alan, Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq, inşaat mühəndisliyi, şəhərsalma, materiallar mühəndisliyi, geomatika və geodeziya mühəndisliyi, yerquruluşu və daşınmaz əmlakın kadastrı, informasiya texnologiyaları, informasiya təhlükəsizliyi, maşın və mexanika mühəndisliyi, proseslərin avtomatlaşdırılması mühəndisliyi və digər ixtisaslar üzrə bakalavriat və magistratura səviyyələrində təhsil alan, Bakı Dövlət Universitetinin isə mexanika-riyaziyyat, fizika, kimya, biologiya, ekologiya və torpaqşünaslıq, coğrafiya, filologiya, geologiya və hüquqşünaslıq ixtisasları üzrə təhsil alan tələbələri Məhkəmə Ekspertizası Mərkəzində təcrübə keçmək imkanı əldə edəcəklər, həmçinin müvafiq sahələr üzrə ekspertlərin hazırlanmasına yönəlmiş xüsusi təlim proqramları həyata keçiriləcəkdir.

Eyni zamanda, məhkəmə ekspertizasının müxtəlif sahələri üzrə birgə elmi layihələrin və ixtisasartırma proqramlarının reallaşdırılması nəzərdə tutulur.

Memorandum, həmçinin məhkəmə ekspertizası sahəsində elmi biliklərin genişləndirilməsi, təhsil və praktika arasında əlaqələrin möhkəmləndirilməsi, gənc mütəxəssislərin ekspert fəaliyyətinə cəlb olunması və ölkədə ekspertiza fəaliyyətinin beynəlxalq standartlara uyğun inkişafına töhfə verəcək mühüm əməkdaşlıq platforması formalaşdırır.

Bakı Dövlət Universiteti ilə keçirilən imzalanma mərasimindən sonra Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin nümayəndə heyəti BDU-nun müasir infrastukturu, muzeyləri və Elmi Kitabxanası ilə tanış olub.

Qeyd edək ki, Əməkdaşlıq Memorandumu Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"da nəzərdə tutulan tədbirlərin, o cümlədən məhkəmə eksperti ixtisası üzrə tələb olunan baza ali təhsil sahələrinin müəyyənləşdirilməsi və bu sahələr üzrə ixtisaslı kadrların məhkəmə ekspertizası fəaliyyətinə cəlb edilməsi istiqamətində işlərin həyata keçirilməsi məqsədilə imzalanıb.

# Ədliyyə Nazirliyinin komandası ”Hüquq Liqası 2026” şahmat turnirinin qalibi olub



**İyunun 12-də Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş, hüquq qurumları arasında ilk dəfə ”Hüquq Liqası 2026” şahmat turniri keçirilib.**

Turnirin keçirilməsində məqsəd ölkədə şahmat idman növünün inkişafına dəstək göstərmək, hüquq ictimaiyyətinin nümayəndələri arasında intellektual yarış mühitini təşviq etmək, habelə hüquqşünasların bu sahədə bacarıqlarının nümayiş etdirilməsi üçün əlverişli şərait yaratmaq olub.

”Hüquq Liqası 2026” şahmat turnirində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Baş Prokurorluğu, Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Azərbaycan Hakimləri İttifaqını təmsil edən komandalar iştirak ediblər.

Dairəvi sistem üzrə iki dövrədən ibarət formatda keçirilən yarış gərgin və maraqlı mübarizə ilə yadda qalıb.

Turnirin yekun nəticələrinə əsasən, ədliyyə orqanlarının əməkdaşlarından ibarət komanda birinci yerə layiq görülərək yarışın qalibi olub. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının komandası ikinci, Azərbaycan Hakimləri İttifaqının komandası isə üçüncü yeri tutub.

Sonda qaliblərə kubok, diplom və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, turnirin keçirilməsinə təşkilati dəstək Azərbaycan Şahmat Federasiyası tərəfindən göstərilib.

# Ədliyyə Akademiyasında “İnsan Hüquqları” Aylığı” çərçivəsində təlimlər keçirilib

**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında ”İnsan Hüquqları Aylığı” çərçivəsində ”İnsan hüquqları və yerli özünüidarəetmə” mövzusunda təlim keçirilib.**



Bakı şəhər və Abşeron rayonlarını təmsil edən 65 bələdiyyə üzvü və qulluqçusunun iştirak etdiyi təlimin məqsədi yerli özünüidarəetmə sahəsində fəaliyyət göstərən şəxslərin insan hüquqları üzrə bilik və bacarıqlarının artırılması, bu sahədə milli qanunvericilik və beynəlxalq standartlar barədə məlumatlılığın yüksəldilməsi olub.

Akademiya tərəfindən Nazirliyin Penitensiar Xidmətinin 4 saylı cəzaçəkmə müəssisəsində də ”İnsan hüquqları hər kəs üçündür” mövzusunda maarifləndirici təlim keçirilib.

Təlimdə 100 nəfər qadın məhkum, eləcə də Penitensiar xidmətin 4 saylı cəzaçəkmə müəssisəsinin əməkdaşları iştirak ediblər.

Tədbirdə nazirliyin Tibb baş idarəsinin və Ədliyyə Akademiyasının əməkdaşları insan hüquq və azadlıqlarının qorunması, bu sahədə hüquqi maarifləndirmənin artırılması, habelə penitensiar müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının təmin edilməsinin əhəmiyyəti barədə iştirakçıları məlumatlandırıblar.

Aylıq çərçivəsində daha bir tədbir ”İnsan hüquqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi” mövzusunda təşkil olunub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və İqtisadiyyat Nazirliyinin 37 əməkdaşının qatıldığı təlimdə insan hüquqlarının konstitusion əsasları, onların müdafiəsi mexanizmləri, dövlət orqanlarının insan hüquqlarının təmin edilməsindəki vəzifələri və bu sahədə mövcud aktual məsələlər ətrafında geniş müzakirələr aparılıb.

# Məhkum qadınların övladları ilə görüşü təşkil edilib

**1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə İnsan Hüquqları Aylığı çərçivəsində Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin 4 saylı cəzaçəkmə müəssisəsində ”Açıq qapı” günü təşkil edilib.**

Məhkum qadınlar uşaq evlərindən onların görüşünə gəlmiş övladları ilə birgə maraqlı və əyləncəli vaxt keçiriblər.

Məhkumlar tərəfindən hazırlanmış xüsusi proqram və animasiya qəhrəmanlarının iştirakı ilə musiqili şoular böyük sevinc hissi ilə qarşılanıb.





# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "ORİYAT" Xeyriyyə ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.05.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q4-1744
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əzizov Elşad Əşrəf oğlu olmuşdur
**Dəyişiklik:** 02.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Fullkontakt və Kyokuşin Karate Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 02.06.1999-cu il
**Qeydiyyat N-si:** 1138
Konfransın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Rüstəmov Allahverdi Ağaməd oğlu olmuşdur
**Dəyişiklik:** 02.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Turan" Vətəndaş Cəmiyyətinə Yardım ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.05.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q11-2124
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Babayev Yaqub Aydın oğlu olmuşdur
**Dəyişiklik:** 03.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Regionların Sosial İqtisadi İnkişafına Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 03.09.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q22-2569
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Kazımova Məhluqə Şəki qızı olmuşdur
**Dəyişiklik:** 03.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Aşıq Şəmşir" mədəniyyət ocağı ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.01.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q30-2799
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qurbanov Cavid Qənbər oğlu olmuşdur
**Dəyişiklik:** 04.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.06.2012-ci il
**Qeydiyyat N-si:** 1112-Q40-3062
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İsmayılov Nadir Nəbi oğlu olmuşdur
**Dəyişiklik:** 04.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Respublikasının İdman Rəqsləri Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 03.07.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q18-2399
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırki adı: "Azərbaycan İdman Rəqsləri Federasiyası" ictimai birliyi, hazırki məqsədi: idman rəqslərinin Azərbaycan Respublikasında təbliği və inkişafı məqsədilə müxtəlif layihələrin işlənilməsi, əhalinin idmana və bu sahədə kütləvi yarışlara cəlb edilməsi, yeni qanuni təmsilçisi Həşimli Əli Muxtar oğlu olmuşdur
**Dəyişiklik:** 04.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Vətəndaş Cəmiyyətinin Regionlarda İnkişafına Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 14.12.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q34-2904
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cəbrayılova Sevinc Sabir qızı olmuşdur
**Dəyişiklik:** 08.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Gənclər və Ekologiya" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.03.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q26-2700
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Xələfov Rəşadət Miri oğlu olmuşdur
**Dəyişiklik:** 08.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Qarabağ Müharibəsi Veteranlarına Yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q24-2639
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Elşad Şahverdi oğlu olmuşdur
**Dəyişiklik:** 09.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Şamaxı Futbol Klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.09.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q60-3523
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Usub Elçin Arif oğlu olmuşdur
**Dəyişiklik:** 09.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Müstəqil Mətbuat Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.09.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q13-2212
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qarayev Elçin Xalid oğlu olmuşdur
**Dəyişiklik:** 10.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Regionlarda Gender Bərabərliyinin Təbliği" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.10.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q33-2888
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənova Aytəkin Tahir qızı olmuşdur
**Dəyişiklik:** 11.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Hilal" sosial araşdırmalar ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.06.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q59-3489
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Abdulkərimov Arzuman Səid oğlu olmuşdur
**Dəyişiklik:** 16.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi" (ATXƏM) ictimai birliyi

**Qeydiyyat tarixi:** 16.11.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q19-2447
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İsmayılov İlham Surxay oğlu olmuşdur
**Dəyişiklik:** 16.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### Qərbi Azərbaycan İcması

**Qeydiyyat tarixi:** 14.02.1992-ci il
**Qeydiyyat N-si:** 139
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırki məqsədi: müxtəlif vaxtlarda etnik mənsubiyyətlərinə görə indiki Ermənistan ərazisindən deportasiya olunmuş, nəticədə əsas hüquq və azadlıqları tapdalanmış, zorakılığa və məhrumiyyətlərə məruz qalmış azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqla onların hüquqlarının beynəlxalq müstəvidə bərpası-Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına qayıtmalarına şərait yaradılması və oraya qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqlarının təmin edilməsi, habelə onların fərdi və kollektiv hüquqlarının təmin edilməsi, habelə onların hüquqlarının və maraqlarının beynəlxalq təşkilatlarda və beynəlxalq məhkəmələrdə, xarici dövlətlərin məhkəmələrində və müvafiq qurumlarında qorunması və təmin edilməsi, etnik azərbaycanlılara qarşı törədilən tarixi cinayətlər haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu cinayətləri törətmiş erməni millətçilərinin və Ermənistan SSR-in indiki varisi olan Ermənistan Respublikasının beynəlxalq müstəvidə məsuliyyətə cəlb edilməsinə nail olmaq, qanuni təmsilçisi Ələkbərov Əziz Yusif oğlu olmuşdur
**Dəyişiklik:** 16.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Poloniya" mədəni əlaqələrin inkişafı ictimai birliyi

**Qeydiyyat tarixi:** 27.07.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q60-3513
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Yekaterina İqorevna olmuşdur
**Dəyişiklik:** 16.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Qarabağa Dönüş" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.09.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q13-2207
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən hazırki məqsədi: erməni işğalı nəticəsində Azərbaycan Respublikasının Qarabağ bölgəsindən yaşayış yerini tərk etməyə məcbur olub ölkə hüdudlarında başqa yerə köçmüş azərbaycanlıların (məcburi köçkünlərin) öz doğma torpaqlarına qayıtmasına və ləyaqətli şəraitdə yerləşdirilməsinə kömək etmək, habelə onların hüquqlarının və maraqlarının qorunması və təmin edilməsi, qanuni təmsilçisi Gəncəliyev Tural Babaşah oğlu olmuşdur
**Dəyişiklik:** 18.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Sosial dövlət naminə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q73-3831
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əhmədov Faiq Mehman oğlu olmuşdur
**Dəyişiklik:** 18.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Endokrinoloqlar Cəmiyyəti" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.10.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4214
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Həsən Gülay Həsən qızı olmuşdur
**Dəyişiklik:** 23.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Tərəqqi" sosial tədqiqatlar ictimai birliyi

**Qeydiyyat tarixi:** 25.05.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q18-2385
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əmənov Calal Tofiq oğlu olmuşdur
**Dəyişiklik:** 24.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Demokratik İnkişaf Platforması" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.02.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q26-2677
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Sadıqlı Əlövsət Əhəd oğlu olmuşdur
**Dəyişiklik:** 24.06.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### ELAN

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 2016-cı il 1 mart tarixli 1116-QK6-0028 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Elmlər Akademiyasının Elm Tarixi İnstitutu ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra altmış gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilmiş ünvana bildirsinlər: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 30

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 31.10.2017-ci il tarixli 1117-Q60-3534 nömrə ilə dövlət qeydiyyatına alınmış "Sənətşünaslığın Təbliği" İctimai Birliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: AZ1131, Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi, V yaşayış sahəsi, ev 12, mənzil 173

***

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 18 mart 2025-ci il tarixli 640025-NQ15-162 nömrə ilə dövlət qeydiyyatına alınmış "Naxçıvan Regional Voleybol Mərkəzi" İctimai Birliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göndərilən ünvana bildirsinlər:
Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 110

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin 30.10.2008-ci il tarixli 1108-Q23-2579 nömrə ilə dövlət qeydiyyatına alınmış "Azərbaycan Musiqisinin İnkişafı və Tədrisi" İctimai Birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, İnşaatçılar prospekti, ev 28, mənzil 48.


| | | | |
|---|---|---|---|
| **Təsisçi:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi **Buraxılışa məsul:** Rasim Həsənov | **Ünvan:** Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 537-06-40 | Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır. | Reyestr N 769 |